D İ L Ç İ L İ K   A R A Ş D I R M A L A R I

Sentyabr-Dekabr/2019 № 2

UOT: 811.512.162.

İSMAYIL KAZIMOV*

# MÜASİR AZƏRBAYCAN DİLİNİN ASSOSİATİV QRAMMATİKASI

**XÜLASƏ**

Məqalədə ilk dəfə olaraq müasir Azərbaycan dilinin assosiativ qrammatikasının yaradılması məsələləri işıqlandırılır. Müəyyənləşir ki, belə bir qrammatika və lüğət ənənəvi qrammatika və lüğətlərdən prinsipial olaraq fərqlənir. Və müasir dövrümüzdə assosiativ prosesin nəticəsi kimi meydana çıxan assosiativ qrammatika dilçilik elminin müstəqil sahələrindən birinə çevrilməkdədir.

Assosiativ qrammatika rus dilçiliyində B.Y.Norman və Y.N.Karaulov tərəfindən ilk dəfə olaraq yazılmışdır.

Məqalədə sözə assosiativ aspektdə yanaşılır. Azərbaycan lüğətçiliyində assosiativ lüğətlərin yaradılmasının labüd olması qeyd edilir.

Bu məsələləri daha dərindən öyrənmək üçün ən mühüm mənbə inteqrativ – assosiativ lüğətlərdir ki, o da Azərbaycan leksikoqrfiyasında yoxdur. Yəni Azərbaycan dilçiliyində inteqrativ əlaqə baxımından bu, yeni bir istiqamət təşkil edir. Həmçinin də, mətn kommunikasiya forması olduğundan bu mövzunun tədqiqi aktuallıq kəsb edir.

Eləcə də bu qrammatika assosiativ-verbal şəbəkə yaradaraq dilin qrammatik quruluşuna yeni yanaşması ilə fərqlənir, yeni tədqiqatların perspektivlərini nəzərə çatdırır, ontoloji məsələlərə cavab vermək üçün əlverişli şərait yaradır.

***Açar sözlər:*** *assosiasiya, linqvistik ideyalar, yeni tip qrammatika, assosiativ qrammatika, assosiativ sahə*

**Giriş.** Bizim yaşadığımız və fəaliyyət göstərdiyimiz yüzillikdə – XXI əsrdə dilçilik bir elm kimi tədqiqat istiqamətini dəyişir, aktivləşir, dilə, onun vasitə və kateqoriyalarına milli-mədəni kod kimi, eləcə də kommunikasiya və dərketmə silahı kimi baxılır. Belə bir fikir formalaşır: *«Mənim dilimin sərhədləri mənim dünyamın sərhədlərini təyin edir»*

Bu ideyanın işığında müasir Azərbaycan dilinin bölmələrinə yeni istiqamətdə yanaşmaq lazım gəlir. Maraqlıdır ki, indi linqvistika, qrammatika dil şəxsiyyətinin aydınlaşdırır, onu ifadə edir, təbii olaraq dil daşıyıcıları da bu qanunauyğunluğa tabe olur.

Dünya dilçiliyində linqvistik ideyalar çoxaldıqca və inkişaf etdikcə yeni qrammatikaların meydana çıxması labüdləşir. Belə qrammatika tiplərindən biri də assosiativ qrammatikadır.

**«Assosiasiya»** termini (lat. *Associatio* – birləşmə, qoşulma anlamındadır) Bu termini birinci dəfə D.Lokk (1698) işlətmişdir. Həmin termin antik fəlsəfədə istifadə olunmuşdur.

Assosiasiya «psixi proseslərin əlaqəsi hadisəsidir. Assosiasiya «iki və daha artıq hadisəni əks etdirən psixoloji proses»dir; Linqvistikada iki dil vahidi arasında olan psixi proses assosiasiya adlanır. "Dil vahidlərinin formal və ya leksik-semantik əlamətlərinə görə birləşməsi assosiasiyadır" (Axmanova, 2007: 59)

Assosiativ qrammatika rus dilçiliyində B.Y.Norman (Norman, 1994) və Y.N.Karaulov (Karaulov, 1993) tərəfindən ilk dəfə olaraq yazılmışdır.

Dildə semantika problemləri fikir vahidləri arasındakı qarşılıqlı əlaqələrin əsas növlərini dəqiqləşdirməyi tələb edir. Belə qarşılıqlı əlaqələr üçdür: rabitə, müstəqim assosiasiya və məcazi assosiasiya.

İki fikir vahidinin rabitəsi fizioloji cəhətdən təşkil olunur, burada əlaqələnən vahidlərin konkret strukturundan asılı olmayaraq bunlardan birinin o birinə təsiri olur.

İki fikir vahidinin assosiasiyasında (rabitədən fərqli olaraq) fikir vahidləri arasında fiziki kontakt mövcud olmur. Bu vahidlərin strukturları arasında bir *bənzərlik*, «izomorfizim» (həmin bənzərlik məqsədəuyğun fəaliyyətdə, konkret situasiyada meydana çıxır) olduğundan həmin vahidlər qarşılıqlı tərzdə bir-birilə əlaqələnir. Bu vahidlərin biri mücərrəd olarsa və eyni sinfə mənsub konkret vahidlərin hər hansı bir strukturunun yarımstrukturuna daxil ola bilərsə, onda mücərrəd və konkret vahidlərin arasında *müstəqim assosiasiya* yaranır. Müxtəlif siniflərə məxsus iki vahid (obraz) arasındakı assosiasiya *məcazi assosiasiya* adlanır (Verdiyeva, Ağayeva, Adilov, 1982 : 292)

* Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, Müasir Azərbaycan dili şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor, cahid@ismayiloglu.com

Leksik vahidlərin assosiativ əlaqəsinə struktur və lüğəvi məna münasibətləri, kontekst daxili əlaqələr daxildir. Sözlərarası əlaqə dilin leksik-semantik sistemində paradiqmatik, sintaqmatik, fonetik, sözyaradıcılığı assosiasiyalarını formalaşdırır.

Sözün tərkibində səslər assosiasiya yaradır, buna fonetik assosiasiya deyilir. Məs.: **ş** samiti ilə bitən sözlərə **l** ilə başlayan şəkilçi əlavə edildikdə **ş** samiti nitq prosesində **d-**ya keçir: **başla-başda, dişlə-dişdə, quşlar-quşdar, daşlı-daşdı** və s.

Söz və assosiasiya məsələsi sözün psixolinqvistik aspektləri ilə əlaqədardır. Məs.: *«imic»* ingilis sözü aşağıdakı özünə yaxın mənalı sözlərlə assosiasiya yarada bilir: görkəm, görünüş, davranış, nüfuz və s.

Assosiativlik təlim prosesində motivasiyaya yol açır. Bu anlayışlar arasında münasibət yaranır. Motivləşmə-assosiasiya normaları üzə çıxır.

Mətndə sözlərin assosiativ əlaqələri iki strukturu doğurur: stimul və reaksiya. Assosiativ sıranın fikir məzmunu, mahiyyəti bu anlayışlar vasitəsi ilə gerçəkləşir.

Mətndə sözlərin assosiativ əlaqəsi çoxfunksiyalı bir hadisədir, qavrama prosesini və nitqin dərk olunmasını izah edir. Mətndə assosiativ-verbal (sözlü) şəbəkənin, torun yaranma mexanizmi reallaşır. Mətni assosiativ əlaqənin kommunikativ rolu üzə çıxır. Bu zaman mətni assosiasiyanın linqvistik statusu müəyyənləşir. Bu əlaqənin, fəaliyyətin dərk edilməsindəki dinamikası artır. Mətn daxilində leksik vahidlər arasında assosiativ əlaqə sözün uzual münasibətini müəyyənləşdirir, assosiativ sahəni yaradır, fərdi və kollektiv assosiativ normaları (fərdi və kollektiv tərəfindən yaradılan sözlərin mənaları), sözün mənasının psixoloji təbiətini dəqiqləşdirir. Mətndəki sözlərin mətni əlaqəsi çoxfunksiyalı hadisədir, mətnin necə dərk olunmasını təmin edir. Müəllifin kommunikativ fəaliyyəti, müəlliflə oxucu arasında olan assosiativ əlaqənin aşağıdakı funksiyaları yerinə yetirməklə həyata keçirir: mətnyaradıcı, kontaktqurucu, obraz konkretləşdirici, fikir-məna müəyyənləşdirici funksiyaları bura aid etmək olar. Ən mühüm amil mətnyaradıcılıqdır, sözlərin assosiativ əlaqəsi nəticəsində mətni bağlayan vasitələr üzə çıxır, burada sözlərin bu baxımdan rolu görünür, bu zaman mətnin leksik strukturu stimullaşır, **müəllif fikri ilə oxucu qənaəti** birləşir. Mətn quruculuğunda assosiativ sahədə digər sahələrin də semantik, tematik, leksik-semantik sahələrin, sinonim və antonim düzülüşün və həmin qrupların rolu üzə çıxır. Məs..:

*Yeni cəsədlər və köhnə skeletlər döyüş meydanlarından, zəlzələdən sonrakı viranlıqlardan, meşələrdən, dağlardan, dərələrdən, düzlərdən yığılıb qəbirstanlıqlarda basdırılırdı.*

*Qəbiristanlıqlara yaxın yerlərdə yaşayış yerləri salınırdı. Bu yaşayış yerləri bir az tez, bir az gec kəndlərə çevrilirdi.*

*Kəndlərdən bəziləri böyüyüb şəhər olurdu. Şəhərlər daha sonra ölkələr, dövlətlər yaradırdı. Şəhərlərdən bəziləri ölkələrin paytaxtı olurdu.*

*Dünya dönmədən düzənə doğru irəliləyirdi. Amma bu düzəni yaradanlar, onu addım-addım, əzab və məhrumiyyətlər hesabına həyata keçirənlər bilmirdilər ki, onlar düzənə doğru irəlilədikcə, eyni zamanda, həm də düzənsizliyə doğru irəliləyirlər (*Kamal Abdulla. Sirlərin sərgüzəşti. Roman, Bakı, Azərnəşr, 2019: 8).

Assosiativ əlaqə ən çox mətn çərçivəsində ortaya çıxır. Burada mətndəki əsas fikir və sözün uzual assosiativ əlaqəsi aktuallaşır. Assosiativ əlaqə konseptin məzmununa təsir edir və onu demək olar ki, formalaşdırır. Mətnin leksik strukturunun bir-birilə assosiativ əlaqəsi oxucu fəaliyyəti ilə assosiativ cəhətdən stimullaşır.

Məlumdur ki, sözlərinin cümlədə, mətndə düzümünün (sırasının) başlıca prinsipi assosiativ birləşmə prinsipidir ki, bu zaman danışanın şüurunda yaranan fikirlərin və anlayışların ardıcıllığı sözlərin sıralanmasını şərtləndirir. Bu, məsələ dialoqda replikaların bir-birinə qovuşmasının xarakterində öz əksini tapır.

Burada sözlərin birləşdirici konstruksiya yaratması söylənilən fikrin getdikcə artan gərginliyini müəyyənləşdirir. Belə assossiativ birləşmələrin ardıcıllığında şifahi nitqə xas olan bir sıra qanunauyğunluqlar mövcuddur.

Dilçilikdə sözlərin assosiativ əlaqəsi məsələsi XIX yüzilin sonlarından öyrənilməyə başlanmışdır. Söz və assosiasiya məsələləri, vasitələri bu yüzildən həm psixoloji, həm də linqvopsixoloji istiqamətlərdə araşdırılmışdır. (Kruşevskiy, 1983)

Sözlər arasında mühüm assosiativ əlaqələr, stimul-reaksiyalar mövcuddur. Bu əlaqə nəticəsində assosiativ mənalar formalaşır. Sözün assosiativ strukturu yaranır. Struktur-semantik əlamətlər assosiativ sahədə mərkəzləşir. Bu məsələ-

ləri daha dərindən öyrənmək üçün ən mühüm mənbə assosiativ lüğətlərdir ki, o da Azərbaycan leksikoqrafiyasında yoxdur. Yəni Azərbaycan dilçiliyində inteqrativ əlaqə baxımından bu, yeni bir istiqamət təşkil edir. Həmçinin də mətn kommunikasiya forması olduğundan bu mövzunun tədqiqi aktuallıq kəsb edir. "Mətnin çoxsaylı əlamətləri sırasında bütövlük, əlaqəlilik, praqmatiklik, tamamlanmış (Qalperin, 1981); informativlik, requlyarlıq, strukturluq, kommunikativlik, inteqrativlik («inteqrativlik qlobal vasitədir" (Sidorov, 1987) və s. xüsusiyyətlər qeyd edilir.

Bədii mətndə sözün kommunikativ potensialı, assosiativ-fikir əlaqəsi rus və xarici dilçilərin tədqiqatlarında işıqlandırılmışdır (Bolotnova, 1992, 1994; Babenko, 1999; Karpenko, 2000 və b.).

Tədqiqatlarda mətni assosiasiya aspekti birinci və ikinci kommunikativ fəaliyyət kimi dəyərləndirilir. (Kubrakova, 1994). Burada inteqrativlik xüsusi müasir paradiqma təşkil edir.

Sözün assosiativ əlaqəsi müasir dilçiliyin mətnsentrik ənənəsidir. Bu baxımdan *mətn insanın mənəvi fəaliyyətinin işarəsi hesab edilir*. (Murzin, 1994: 161) Sözün assosiativ əlaqəsinin stimullaşdırılması mətnin təşkili və mətnlərarası assosiatitv-fikir sahəsində açar konseptlərin meydana çıxarılması baxımından önəm daşıyır. Assosiativ norma sosial mənsubiyyətdən, mədəni oriyentasiyadan, kollektivin təhsil səviyyəsindən və s. asılı olaraq variantlaşır. *Bu gün orta məktəbin Azərbaycan dili dərslərinin məhz mətn vasitəsi ilə tədrisi mətnin insanın mənəvi fəaliyyətinin işarəsi olması ilə birbaşa bağlıdır.* Çünki mətndə hər bir mənəvi stimul yaradan ehtiyatlar vardır, sözlərin əlaqəsinin assosiativ resursları (ehtiyatları) obrazlılıqla, estetik məna və metaforlaşma ilə bağlıdır. Məsələn, 4-cü sinfin «Azərbaycan dili» dərsliyində «Natiqlik məharəti haqqında» («Qabusnamə»dən) mətnində, sözün əsl mənasında, «məna assosiasiyası» yaradılmışdır. Mətni olduğu kimi veririk: «Böyük hökmdar Harun ər-Rəşid bir gün yuxuda gördü ki, bütün dişləri tökülüb. Yuxuyozanı yanına çağırıb yuxusunu ona danışdı və soruşdu: – Bu yuxunun mənası nədir? Yuxuyozan dedi:- Padşahın ömrü uzun olsun. Buy yuxu göstərir ki, bütün qohum-əqrəban səndən əvvəl öləcək.

Harun ər-Rəşid keşikçilərinə üzünü tutub dedi: – Aparın bu yuxuyozana yüz çubuq vurun. O, belə bir ağır xəbəri nə üçün üzümə dedi?! Qohum-qardaşın ölümünü görməkdən pis nə ola bilər?!

Xəlifə əmr elədi, başqa yuxuyozanı çağırdılar. Ona da yuxusunu danışıb yozmasını tələb etdi. Yuxuyozan belə cavab verdi: – Hökmdar sağ olsun. Bu yuxudan görünür ki, sən bütün qohum-əqrəbandan çox yaşayacaqsan.

Harun ər-Rəşid fikrə getdi. *«Məna həmin mənadır, amma ifadələrdə böyük fərq vardır»*, - deyə düşündü və əmr etdi ki, həmin yuxuyozana yüz dinar versinlər» (Azərbaycan dili, 2019: 38) Mətndə «yüz çubuq»- «yüz dinar», «iki yuxuyozan», «həmin yuxuyozanları eyni fikri, mənanı fərqli formalarda ifadə etməsi» assosiativ əlaqəyə örnək ola bilər. Burada fraqmentin mənaları aşağıdakılardır: anlayış, ideya və konsept.

Mətndə assosiativ əlaqə yaradan açar sözlər sözün kommunikativ potensialı kimi üzə çıxır. Hamının qəbul edərək işlətdiyi dil vahidi (leksik vahidlərinin tiplərinin assosiativ lüğətlərdə əksi) və mətn-fərdi məhsul (assosiativ əlaqənin funksiyaları) səviyyəsində assosiativ sahədə sözün əsas xüsusiyyətləri (onun necə dərk edilməsi) meydana çıxır.

Assosiativ açar söz. Məs.: *«İŞIQ»* sözü: Bu söz dünyanın dil mənzərəsini öz koqnitiv mənaları ilə konseptuallaşdırmaqla yanaşı, həm də kateqoriyallaşdırır. Assosiativ sahədə bu söz stimullaşır. Uzual assosiativ sahədə assosiativ reaksiya bütöv, mətni sözlərin assosiasiyası və ya mətni assosiativ əlaqə-sinonim anlayışlardır. Məna qarşılıqları stimullaşır. Bu, kontekstin əhatəsindən asılıdır. Həmin konsept dünyanı dərk etmə vahidi kimi çıxış edir.

Sözün leksik mənası: 1.Ətrafı işıqlandıraraq, onu gözlə görünəcək hala salan şüa enerjisi; nur, ziya; işıq almaq (məc., işıq vermək-işıqlandırmaq: Ay doğdu işıq verdi; işq olmaq, işıq salaq, işıq saçmaq, işıq düşmək; metoforikləşmiş anlamda: ağ gün, aydınlıq, xoşbəxtlik, fərəh mənasında: Azərbaycan kəndinə əbədi işıq və səadət gəlmişdir; maarif, mədəniyyət, ürfan, tərəqqi mənasında: İşıq, nur mənbəyi gözəl yurdumuz; Getdiyin yollara nurlar səpələr (N.Rəfibəyli) İşıqdan qorxan, maarif düşməni, tərəqqi düşməni; cəhalətpərəst. İşıqdan qorxan və millətin ayılmağından xof və əndişə edən mülkədar, bəylərin və ağaların mərhəmətindən (kənd camaatı) bir növ əxlaqsız olublar (F.Köçərli); aydıqlıq, təmizlik mənasında. Dağlar başı işıqdır; Gün dağa yaraşıqdır; Qaynanam məni sev-

mir; Oğlu mənə aşıqdır (Bayatı) (Azərbaycan dilinin izahlı lüğəti. II cild, 1980: 457-458)

Görkəmli şair Hüseyn Kürdoğlunun poeziyasında «işıq» açar konseptlərdən biridir. ***Xırman işığı***

*Qalıb xatirimdə körpəliyimdən*
*Ağ pencə, ağ taya, xırman işığı.*
*Vəllərin üstündə fırlandıqca mən,*
*Düşürdü gözümə heşan işığı,*
*Dirilik şöləsi – xırman işığı!*

*Mənimlə birlikdə dövrə vururdu*
*Yaxın qonşumuzun o göyçək qızı.*
*Qəhqəhə çəkirdi, lap uğunurdu,*
*Bir dağ laləsinə dönürdü üzü.*
*Yanırdı gözündə şeytan işığı,*
*Bir az da artırdı xırman işığı.*

*Qızın biləyindən yapışdıqca mən,*
*Xəyalım dünyaya qanad açırdı.*
*Axşam küləyində sovrulurdu dən,*
*Buğda tayalanıb şəfəq saçırdı.*
*Sarala qalırdı saman işığı,*
*Kövşən ətiriydi xırman işığı.*

*Qocalar, qarılar, qızlar gəlinlər*
*İşdən soyumurdu qaş qaralınca.*
*Əldə qabar vardı, alındasa tər,*
*Gün qızğın gəlirdi günün dalınca,*
*İş üstdə gur olur insan işığı,*
*İnsan işığıydı xırman işığı!*

*Qaçıb su gətirdi novlu bulaqdan,*
*Bardağı dolusu o quzu ceyran.*
*«Oxqay» səsi qopdu neçə dodaqdan,*
*Yayın bürküsündə dad verir ayran,*
*Közərir üzlərdə al qan işığı,*
*Vicdan işığıydı xırman işığı»*

*Taya kölgəsinin şirin yuxusu,*
*Sarı döşək kimi o yumşaq bəlim…*
*Şirin nəvazişli ana qayğısı,*
*Baxışı mehriban, gülüşü həlim,*
*Onun ağ alnında bir dan işığı,*
*Ana təbəssümü – xırman işığı!*

*Zülmət su calasa bir gün oduma,*
*Tutulsa günəşim, tutulsa ayım,*
*O xırman işığı yetər dadıma,*
*Dünya işığından kəsilməz payım.*
*Sönməz sığındığım aman işığı,–*
*O xırman işığı, xırman işığı»*

*(Bax: Hüseyn Kürdoğlu. Seçilmiş əsərləri. İki cilddə, I cild, Bakı, «Sabah», 2011, s.83-84)*

Bu poetik mətnin təşkilində ifadələrin assosiativ əlaqəsinin rolu böyükdür. Belə ki, şeir assosiativ sahədə qərarlaşmışdır. Bu, şairin kəşfidir. Və bu kimi mətnlərin dünyanın dərk olunmasındakı rolu və əhəmiyyəti inkaredilməzdir.

Sözün fraqmentləri sözü xüsusi linqvokulturoloji istiqamətdə öyrənir. Mədəniyyət anlayışı deyərkən müxtəlif konseptlər nəzərdə tutulur. Bu konseptlər milli konnotasiyaları yaradır. Məs.: Azərbaycan mədəniyyətində «ev» konsepti anlayışı (**yurd** anlayışı ilə sıx şəkildə bağlıdır. Milli rəngarənglik, sözün linqvospesifikası insanın yaşam yerini aydınlaşdırır.

Sözün mətndə assosiativ əlaqəsi yeni linqvistik paradiqma kimi nəzəri cəlb edir. Məs.: «davranış» sözü aşağıdakı mətndə «əxlaq», «rəftar», «hərəkət», «hərəkət tərzi» söz və ifadələri ilə assosiativ əlaqəyə girmişdir: «İnsan mühitdə davranışı ilə də imic qazanır. Onun əxlaqı, başqalarına qarşı rəftarı, ümumiyyətlə, hərəkət tərzi normal olmalıdır».

Maraqlıdır ki, insan davranışının rəngarəng formalarının, o cümlədən linqvistik formaların dərindən, hərtərəfli tədqiqi nəticəsində dilçilikdə yeni bir cərəyan – etnolinqvistika meydana çıxmışdır.

İnsana məxsus bu əxlaqi dəyərləri ifadə edən sözlər bir-biri ilə assosiasiya yarada bilmiş, fikri, mənanı stimullaşdırmış və aktuallaşdırmışdır.

Göründüyü kimi, sözün təkcə mənası deyil, onun stimulu da dilin leksik-semantik sistemində əsas yerlərdən birini tutur. Şübhəsiz, sözün leksik-qrammatik xüsusiyyətlərinin rolu onun assosiatik əlaqəsini formalaşdırır. Sözün praqmatik mənası assosiativ əlaqənin yaranmasına təsir göstərir. Sözün assosiativ əlaqəsi onun məntiqi-predmet uyğunluğundan və mənsubluq, tematik və leksik-semantik qrupların yaratdığı mənadan asılıdır.

Psixologiyada iki və daha artıq təsəvvür aspektlərinin şüurda əlaqələnməsi prosesi bir neçə təsəvvür elementlərinin qarşılıqlı şəkildə üzə çıxması zaman, yer, oxşarlıq və ziddiyyət kimi müəyyən assosiasiya qanunları ilə həll olunur. Xəyala dalmaq, fikirləşmək, yaddaş kimi məsələlərin tədqiqində assosiativ plan mühüm rol oynayır. Psixolinqvistikada qıçıqlanma və reaksiya arasında əlaqələr **neobiheyviorist** psixoloji yanaşma baxımından müəyyən edilərək mənanın şərhində tətbiq edilir. Bu zaman vasitəsiz

qıcıq yaradan sözə bağlı digər sözlərə vasitəli, yəni birbaşa müşahidə olunan stimul-respons prosesləri arasında əldə olunan assosiasiyalar həlledici rol oynayır.

Assosiativ münasibət – dil vahidləri arasında olan münasibətdir. Sözlər arasında assosiativ münasibətin psixoloji təbiəti vardır. (Bolotnova, 1994: 359)

Dil mətnin toplusudur və nitq fəaliyyətinin mühüm vasitəsidir. Dildə nə varsa, hansı hadisə və proseslər baş verirsə, bu mətn vasitəsilə gerçəkləşir.

Assosiativ proses – psixologiyada iki və daha artıq təsəvvür aspektlərinin şüurda əlaqələnməsi prosesi bir neçə təsəvvür elementlərinin qarşılıqlı şəkildə üzə çıxması zaman, yer, oxşarlıq və ziddiyyət kimi müəyyən assosiasiya qanunları ilə həll olunur.

Bu məsələ psixolinqvistikanın problemlərindəndir. Psixolinqvistika dil vahidlərinin nitq fəaliyyətinin həyata keçməsi mexanizmi və formaları ilə əlaqəsini açmağa cəhd göstərən elmdir. Bu baxımdan bir sıra psixoloji anlayış və terminlər dilçilikdə də işlənir və iki elmin (psixologiya və linqvistika) qovuşuğunda inteqrasiya olunur, dilin araşdırılması ilə bağlı olaraq dilçilik elminin qazandığı böyük təcrübələri birləşdirir.

Ümumiyyətlə, psixoloji assosiyasiyanın qrammatik aspektləri geniş və əhatəlidir. Elə məlum qrammatika bu aspektlər üzərində qurulub. Assosiativ qrammatika haqqında xarici və sovet linqvistikasında kifayət qədər məlumata yiyələnmək mümkündür. Azərbaycan dilçiliyində isə bu haqda heç bir kiçik məqalə də yazılmayıb. Yeni tədrisdə isə assosiativ təhlilin mətnlər üzərində necə aparılması yollarından bəhs edən metodik səciyyəli əsərlər də, təəssüf ki, yoxdur. Bu baxımdan təkidlə demək olar ki, müasir tədris-təlim prosesində Azərbaycan məktəblərində Ana dilinin tədrisində assosiatik qrammatikanın bəsit də olsa nəzəri əsasları öyrəniməli və bu nəzəri müddəalar, təhlil prinsipləri tətbiq olunmalıdır (Mətnlərin təhlilində). Onsuz da istər-istəməz assosiasiya mətndə yardılır, çalışma və tapşırıqlarda öz əksini tapır və müəllim, şagird də bilmədən bu təhlilin içinə girir. Ən böyük əhəmiyyət burasındadır. Mətni hərtərəfli dərk etmək, onu dərindən öyrənmək isə bu günkü elmin, tədrisin qarşısında duran ən ümdə vəzifələrdəndir.

Sözlər arasında məntiqi-semantik assosiasiyalar mövcud olur. Məs.: “Xatirələr də payıza düşür, bu yarpaqlar kimi solur, saralır və bu yarpaqlar kimi, bir gün yox olacaq, çürüyəcək və torpağa qarışacaq. Payızın qurtarmağına az qalmışdı və bu seyrək yarpaqların da ömrünə lap az qalmışdı” (İ.Əfəndiyev)

Bu mətndə *payız-xatirə-yarpaq* məntiqi-semantik assosiasiya əmələ gətirmişdir. Birinci söyləmdə *payız-xəzan* assosiasiyası çərçivəsində yarpaq obyekti dayanır, xatirə-yarpaq assosiasiyası isə sonrakı abzasda davam etdirilir və xatirə-yarpaq assosiasiyası çox güclü məntiqi sonluqla bitir.

**Nitqin ontologiyası** indiki yeni ana dili dərsliklərinin əsasını təşkil edir. Elə psixolinqvistikanın problemləri də məhz nitqin ontoloji quruluşu ilə bağlıdır. Məsələlər ünsiyyət aktı mühitində öyrədilir. Şagirdin ünviyyəti bu prosesdə mərkəzi yer tutur. Bizcə, birinci növbədə, dili mənimsəmənin nitqlə əlaqəli tərəfi öyrədilməlidir. Qrammatik bilik qavramda fəallaşmalıdır ki, şagird nitqini yaxşı qura bilsin. Assosiasiya nəticəsində, gedişində ardıcıl olaraq şagird dili mənimsəyir: Prosesə nəzər salaq: *ana, mən, sevmək* sözlərini biləndən sonra uşaq *Mən anamı sevirəm* söyləmini asanlıqla qura bilir. Qrammatik münasibəti quran vahidlər (morfemlər) sözlər ətrafında assosiativ əlaqəni istər-istəməz yaradır. Söz birləşmələri zənciri formalaşaraq söyləm (cümlə) səviyyəsinə qalxır, tədricən şagirdlər tərəfindən dilin qrammatik formaları mənimsənilir. Bu mənimsəmə dil qabiliyyəti və dil fəallığı anlayışını üzə çıxarır. Deməli, nitq yalnız kommunikasiya üçün yararlı olmur, həmçinin də ünsiyyət vasitəsilə bilavasitə şagirdin inkişafına, fəaliyyətinə xidmət göstərir, yəni işləkliyi, çalışqanlığı (fəaliyyəti) planlaşdırır, aktivləşdirir.

Bu cəhətdən pedaqoji fəaliyyət, beyin fəaliyyəti, elmi fəaliyyət, ürəyin fəaliyyəti, fərdin, kollektivin, fəaliyyəti – hər bir müəyyən assosiasiyalar nəticəsində gerçəkləşir. Ən acınacaqlı tərəf odur ki, bu gün həm ümumtəhsil, həm də universitetlərimizdə şagird və tələbələrin fəaliyyətsizliyi hökm sürür. Onların arasında fəaliyyət göstərməyən, çalışmaq istəməyən, hərəkətsiz, passiv uşaqlara çox rast gəlmək olur. Bu gün həmin nəsli fəallaşdırmaq, fəaliyyətini daha da artırmaq, daha da canlandırmaq, aktivləşdirmək qarşıda bir vəzifə kimi durur.

Assosiativ proses şagirdi dil vasitəsi ilə ətraf aləmi, mühiti dərketməyə sövq edir.

Assosiatik prosesin nəticəsi kimi meydana çıxan assosiativ qrammatika, assosiativ linqvistika dilçilik elminin müstəqil sahələrindən birinə çevrilməlidir.

Assosiativ sahə – müəyyən formal və məzmun əlaqələrinə, yəni sözdüzəltmə və söz mənasına əsaslanan assosiativ sahə, söz sahəsidir.

«Assosiativ təhlil» – allofon və allamorfların uyğun fonem və morfemlə əlaqələndirilməsidir, yəni danışığa məxsus allofon və allomorflarla dilin müvafiq struktur elementlərin əlaqəsini bərpa etmək deməkdir.

«Dil qabiliyyəti, istedadı» – mətndən sistemə keçiddir – yeni tip qrammatika bu sferada yüklənir. Bu qrammatikanın informasiya məkanı sistem təsirlərdən ibarətdir – deskriptiv qrammatikadır. Bu qrammatikaya görə, «insanın dünya barədə düşüncələrinin (təsəvvürlərinin) formalaşmasına dil təsir edir, həmin formalaşma dildən asılıdır, dilin təsiri ilə baş verir» (E.Sepirin ideyalarından), Amerika dilçisisi E.Sepir Amerikada assosiativ qrammatikanın yaradılması üçün xüsusi nəzəri əsaslar yaratmağın məsuliyyətini göstərir. Xüsusən də, burada qrammatok kompetensiyanın rolunu qiymətləndirir.

Danışanın qrammatik kompotensiyasının məzmun və mahiyyəti də assosiativ qrammatikanın tələbləri səviyyəsində qurulmalıdır. “Kompetensiya – N.Xomskinin dil nəzəriyyəsində dil bilgisi və bu bilginin konkret tətbiqi kimi performansa (dildə istifadəyə) qarşı qoyulur. Bu ana dilini kortəbii mənimsəmədə qazanılan mental bilgidir ki, hər bir danışan, dinləyən homogen, yəni eyni dialekt, sosiodialekt variantlarından istifadə etməklə azad şəkildə ona yiyələnir. Bu bilgi səriştəli dildaşıyana imkan veiir ki, prinsip etibarı ilə mövcud elementlərdən sonsuz söyləmlər düzəltsin, cümlələrin qrammatik cəhətdən düzgünlüyünü müəyyənləşdirsin, onların çoxmənalılığına və başqa cür deyilməsinə dair hökm çıxarsın. Generativ (transformasional) qrammatikanın vəzifəsi model olaraq elə bir qrammatika hazırlamaqdır ki, danışanın kompetensiyasından irəli gələn qabiliyyətini əks etdirsin və dilin mənimsənilməsi barədə münasib fərziyyə irəli sürsün. Kompetensiya dinamik konsepsiyadır, dilin sonsuzluğa qədər cümlə düzəltmə mexanizmini açmaq niyyətindədir” [Veysəlli, I, 2006].

Assosiativ qrammatikanın digər tip qrammatikalar sırasında yeri fərqli cəhətləri ilə görünür.

Dildə analoji vasitələr öz həcminə, mahiyyət və məzmununa, reprezentasiya (izah, şərh) vasitələrinə görə 2 cür olur: 1) dil-mətn; 2) dil-sistem.

Ayrı-ayrı qrammatikalar təsnifat sxeminə görə bir-birindən fərqlənirlər. Assosiativ qrammatikanın sxemi bu cür müəyyənləşib: *dil – qabiliyyət (istedal, zehin, bacarıq) dil-mətn= assosiativ qrammatika.*

Beləliklə, asssiativ qrammatika-dilin assosiativ-verbal torundan, şəbəkəsindən ibarətdir, onun dinamik-aktiv təsviridir.

Düşüncə, dərketmə vasitəsi olan assosiativ qrammatika fonetika və morfologiyanın, sözyaradıcılığı və sintaksisin məhsulu kimi ortaya çıxır. Məs.: «ayaqla getmək» – «musiqi sədaları altında getmək». Nümunələr göstərir ki, assosiativ qrammatika aktiv mahiyyətlidir, aktiv qrammatikadır. Bu qrammatika «təbii qrammatika»dır. Ən başlıcası isə nitq fəaliyyətinin qrammatikasıdır, yəni *nitqin qrammatikasıdır.* Sözün aktual mənası, onun şüurda olan korrelyatları tapılır və təhlil olunur.

Dildə real mətnlər generativ qrammtikanı formalaşdırır. Generativ yanaşma-yeni ideya və anlayışları-transformasiya ideyası geniş dairədə generativ qrammatika çərçivəsində istifadə olunur. Məzmun və mahiyyətcə assosiativ qrammatika qavram, dərketmə, anlama, başa düşmə qrammatikasıdır. Bu qrammatika fikirləşmə, düşünmə qrammatikasıdır. Fikir, düşüncə qrammatikasıdır. Dərindən düşümək bu qrammatikanın səciyyəvi keyfiyyətlərindəndir.

Assosiatik qrammatika refleks qrammatikasıdır. Onun məzmununda inikas, nəticə, reaksiya vermə xüsusiyyətləri mövcuddur.

Assosiativ qrammatika ənənəvi qrammatikanın kölgəli tərəfinin əksidir.

Həmin qrammatika aktiv qrammatika da adlandırılır, bu cəhətdən refleks yarada bilir. Belə çıxır ki, ənənəvi qrammatikanın hüququ əlindən alınır, aktiv qrammatika bir-birinə təsiretmə yolunda yeni istiqamət alır, fərqli dil vasitələrinin gücünə əsaslanır.

Passiv qrammatikanın ziddinə olaraq aktiv qrammatikada dinamizm qüvvətli olur.

Aktiv assosiativ qrammatikanın təbiəti elədir ki, didaktik metodlarla idarə olunur.

Assosiativ qrammatika deyərkən *«danışan üçün qrammatika»* başa düşülür. Burada bütün materialar leksikdir. Yəni bu qrammatikada leksikləşmə başlıca şərt sayılır. Bunu dildə minimallaşma materialı tələb edir. Xarici dillərin zəngin təlim materialı tələb edir.

Aktiv anlayış bütünlükdə fikir məkanında – mətndə reallaşır.

Sözügedən qrammatikada leksik-semantik və qrammatik informasiyanın həcmi də fərqlidir. Bu qrammatika uzus və mətn səviyyəsində, assosiativ normaya uyğun yazılmalıdır.

«Danışan qrammatika» – «dinləyən qrammatika» cütlüyü sözügedən qrammatika üçün səciyyəvidir.

**Bədii mətnin assosiativ təhlili**.Mətnin assosiativ sahə statusu, tipologiyası vardır. Mətnin assosiativ təhlilinin nəzəri prinsipləri mövcuddur. «Dil» yaxud «dil-mətn», nəhayət, dildə məsələnin ideal mahiyyəti necə anlaşılır, dil bacarığı və istedadının necəliyini müəyyənləşdirir. Sözün assosiativ əlaqəsi müəllifin idiostili əsasında ortaya çıxır. Sözün assosiativ əlaqə funksiyası müəllif və adresatın kommunikativ fəaliyyətini nizama salır.

Bu, xətt boyu təhlil olunur. Assosiativ linqvistika insanın dil bacarığını, istedadını öyrənməklə məşğuldur. Bu dilin psixolinqvistik tərəfidir. Mətnə müraciət olunur. Nəticədə dil qabiliyyəti funksionallaşır. «Hər bir mətndə nəinki dilin sistemi dayanır, həmçinin də dil şəxsiyyəti (şəxsiyyətin dili) durur, dil bacarığının produsenti və mətnin resipienti ilə qarşılaşmaq olur. İki yaxın elm – assosiativ linqvistika və linqvistik mətn əhatəsində problemlər çözülür və qavranılır. Assosiativ sahədə predmet şəxsiyyətinin nitqindəki leksik vahidlər öyrənilir və anlaşılır.

**Mətnin assosiativ struktur**u. Sözün assosiativ əhatəsi. Assosiativ strukturun tipləri. Bu tiplərin leksik-qrammatik qanunauyğunluqları belədir: 3 tip: struktur assosiativ sahə mövcuddur: leksik struktur; sintaktik struktur və morfoloji struktur (3 tip) Struktur tiplər qrup şəklində fəaliyyət göstərir: assosiativ sahənin leksik, morfoloji və sintaktik strukturu. Bunlar dilin səviyyə sistemlərini əhatə edir. Assosiativ sahənin koqnitiv strukturu bilik və dərk etməni (dünyanın dil mənzərəsini) qoruyub saxlayır, «dil və insan», «insan-gerçəklik» əlaqə və münasibətlərini, «dünya xəritəsi»ndə onun yerini müəyyənləşdirir. «Dil-insan-gerçəklik (varlıq, həyat, şərait, mühit)» –assosiativ sahənin koqnitiv və praqmatik strukturunu təşkil edir.

Məsələn, *«abidə»* sözünün semantik-assosiatik strukturunu baxaq: Mətnin içərisində olan bu sözün assosiativ strukturu: nəzərdən keçirək: Hüseyn Cavidin abidəsi (heykəli), Orxon-Yenisey abidəsi (Orxon-Yenisey yazıları) və s.

*«Bədbəxt»* sözünün semantik-assosiativ strukturu: bəxtsiz, bəxti gətirməyən, bəxtiqara, qarabəxt, uğursuz. Xoşbəxt sözü ilə assosiativ əhatədə emosional duyğu yaradır: «Bədbəxt adamların xoşbəxt olması inanılmazdır».

*Pul* sözünün semantik-assosiativ strukturu: yanında pul olmaq, pulu olmamaq, yanında pulu olmamaq, pulu uduzmaq, pullanmaq… Bu struktur aşağıdakı əlaqə sahələrini də əhatə edir: kasıblıq, borc, borc pul vermək, pul istəmək və s.

Maraqlıdır, indiki Azərbaycan dili dərslikləri bu model əsasında qurulub. Mətnləri bu sistem üzrə təhlil edən şagirdlər demək olar ki, hər şeyi şüurlu şəkildə mənimməyə bilir, onların yaradıcı fəaliyyəti, həyatı, dili dərketmə fəaliyyəti genişlənir və s.

Hər hansı morfoloji informasiyada assosiativ-verbal tor, şəbəkə çoxobrazlı nitq hissələri və xüsusi kateqoriyalar qorunub saxlanılır. Gerçəklik hadisələri: baxmaq feilinin formaları. Mən baxıram, sən baxırsan, o baxır, biz baxırıq, siz baxırsının, onlar baxırlar. Bu dəyişmə qrammatik kateqoriya kimi yalnız stimul yaratmır, həm də assosiativ-verbal şəbəkə yaradır». (Karaulov, 1993: 27)

Qrammatik formalar stimullaşaraq paradiqmatik və sintaqmatik assosisiyalar yaradır. Paradiqmatik assosiasiya – söz-reaksiyasıdır, sözstimuldur. Reaksiya stimuldan semantik komponentlərinə görə fərqlənir. Sintaqmatik assosiasiya – bir qrammatik sinif-söz-simul digər qrammatik sinifdən-söz –stimuldan seçilir.

Stimul № 1. Velosiped ixtira etmək – ixtira etmək – velosiped

Stimul № 2. Atam mənim – mənim atam

Stimul

**Nəfəs, nəfəsalma**

1.Paradiqmatik reaksiya: o

2.Sintaqmatik reaksiya: süni nəfəsalma, sərbəst tənəffüz, ağır nəfəsalma, yüngül nəfəsalma, son nəfəsədək; hava, musiqi.

**Baxmaq**

1. Paradiqmatik reaksiya: görmək, eşitmək

2. Sintaqmatik reaksiya: geri, qabağa, televizor, pəncərə, film, yuxarı, gözlə, ətrafa, uzaq, yol, serial

"Görmək" stimul feili yaxşı, normal, pis, zəif, əla sifətləri ilə reaksiya yaradır. Feilin növ, zaman və şəxs formaları bir sistem təşkil edərək reaksiyaya girir. Feilin hansı növdə olduğunu müəyyən etmək üçün mənası ilə yanaşı, onun assosiasiya olunduğu formalara da diqqət yetirmək lazımdır.

Göründüyü kimi, stimullar müxtəlif dərəcədə olur.

**Hava** stimulu aşağıdakı reaksiya tipini yaradır: (havadan) asılmaq; dolaşmaq, uçmaq; asılmaq, sallanmaq; havadan asılmaq, havadan asılı qalmaq; tükdən asılı olmaq, telefondan asılı qalmaq (telefonla uzun-uzadı və tez-tez danışma); göylərdə uçmaq (dünyadan xəbərsiz olmaq, xəyala qapılmaq, xəyalpərəstlik etmək)

Assosiasiya dialoq mühitində də özünü göstərir. Məs.:

– Bu gün kim gəlmişdi?

– Qızım.

Cavab cümləsindəki «qızım» söz-stimuldur. Bu söz-stimulun əvvəlinə «mənim» sözünü də əlavə etmək olur. Yəni stimuldan reaksiyaya dogru inkişaf görünür: «mənim qızım». Digər tərəfdən yeni bir stimul (getmək) yaranır: «bağcaya getdi», «uşaq bağcasına getdi». Frazanın bütöv forması: Mənim qızım uşaq bağcasına getdi. Bu inkişaf assosiativ lüğətlərin məqalələrində göründüyü kimi şərh edilir. Nümunələr qeyri-adi formalardan ibarət olur. İnsan cəmiyyəti həmrəylik, bir-birini başa düşmə, ümumi dil tapma, qarşılıqlı anlaşma üçün sözə borcludur. Nitq belə qurulur, insan ayrı-ayrı sözlərlə yox, frazalarla danışır. Sözlər izolə edilir, onları intonasiya müşahidə edir, nitq zəncirləri bir-biriilə əlaqələnir, replikalar yaranır.

İnsan yaşayır, dialoqla, ünsiyyətlə, münasibətlə daha çox,

Ümumiyyətlə, qız sözünün semantik ehtiyatı bir-birilə üzvi şəkildə birləşmiş iki mənayaradan elementə əsaslanır – qız «insan» və qız «bakirə» «Oğuznamə»də qız- yaqut daş.-«cilalanmış, işlənməmiş xam yaqut daş».

**Teatr söz-stimulu.** Cavab reaksiyasını ifadə edən söz «paltaranasan» Bu cütlük S-R (stimul-reaksiya) strukturundan ibarətdir. Yaranan söyləm belədir: «Teatr paltarasandan başlanır». Bu «qanadlı söz»dür.

Stimul nədir? Hərəkətəgətirici və vadaredici səbəb; həvəs və maraq oyadıcı amil. Stimul sözün şəbəkəsini yüksəldir.

Reaksiya nədir? Hər hansı bir təsirə cavab olaraq əmələ gələn təsir. Yüksəlişdən sonra kəskin dəyişiklik əmələ gəlir. Məs.: paradiqmatik reaksiya: nənə - nəvə, ağ-diş, bilet-nəzarət, zaman-saat və s. cütlüklərində özünü göstərir.

Başqa bir nümunə, ismin halları formaca dəyişərək bir-biri ilə reaksiya yaradır: göz-gözün-gözə, gözdə-gözdən. Hal morfoloji göstəriciləri sözlər arasında assosiativ əlaqə yaradır. Assosiasiya yaradan hal dəyişmələri, yəni hallar üzrə dəyişmə isimlərin səciyyəvi morfoloji əlamətidir. Assosiativ lüğət məqalələrinin sözlükdə əks olunmasında bunlar nəzərə alınır.

"Göz" sözü bu dəyişmələrlə əlaqəyə girdiyi feillərlə də metaforik assosiasiya yarada bilir: göz qoymaq, gözün üstə qaşın var, gözə gəlmək, gözdə-qulaqda olmaq, gözdən qoymamaq. Bu iyerarxiya, cütlüklərin uyğunlaşması hal sistemini mətnə bağlayır, söz-stimul və söz-reaksiya doğurur.

**Konsept və assosiativ sahə** bir-biri ilə üzvi şəkildə bağlıdır. (Novikova, 1998: 19).

Məsələn, «işıq» konsepti və onun assosiativ sahəsi omonim əlaqənin, münasibətin fonunda üzə çıxır. -işıq-təmiz enerji, torpaq, dünya, aləm. İşıq konsepti mətn şəraitində aktuallaşır. İşıq sözünün assosiativ potensialı mətndə genişlənir. Mətnin assosiativ xətti bu genişlənmənin hüdudunda inkişaf edir. Bu zaman Sözün leksik mənalarının motivləşmə hadisəsi ilə əlaqəsi formalaşır. Açar sözlərin mətnyaratma funksiyaları çoxalır. Sözlər arasında assosiativ əlaqənin mətnqurucuğunda rolu görünür. Mətnboyu sözün müxtəlif assosiativ mənaları meydana çıxır. Sözün assosiativ sırasında ierarxiya (ierarxiya sözü mənşəcə yunan dilinə məxsusdur. Mənası- *hieros*-müqəddəs, *arxe*- hakimiyyət deməkdir. İerarxiya sözü termin kimi elementlərin yuxarıdan aşağıya doğru qayda üzrə düzülüşü və yerləşməsi mənasında işlədilir. İerarxiya termini söz və assosiativ sahə sisteminə də tətbiq edilir)) yaranır. Mətnin inteqrasiya vasitələrinin rolu, çəkisi artır.

Bədii mətnlərdə assosiativ sıxılma ilə yanaşı, assosiativ genişlənmə də müşahidə olunur. Genişlənmə amili assosiasiya yaradan formaların (məsələn, "qaçmaq" stimulu bir sıra zərflə reaksiyaya girərək şenişlənir: tez, sürətlə, cəld

qaçmaq və s. qrammatik cəhətdən inkişaf etdirilməsi deməkdir. Sözün əsas assosiayalaşma istiqamətləri və qanunuyğunluqları, mətnin leksik strukturunun stimullaşması, «yeni ontoloji paradiqma», dildə insan amili, assosiativ struktur tipləri, «dayaq element» və «söz-marker», kommunikativ fəaliyyət aspektində bədii mətndə stimullaşa bilir, «açar söz»ün əhatəsi genişlənir, genişlənmə bütünlükdə mətni bürüyür. Başqa sözlə, leksik vahid assosiayalaşmağa istiqamət götürür. Müxtəlif elementlər -söz, söz birləşməsi, mikrostruktur və s. genişlənmə vasitəsi kimi özünü göstərir. Assosiativ genişlənmə mexanizmi, sözün kommunikativ potensialı, «dildaxili genişlənmə» (çoxmənalılıq yaxud sözün semantik komponentləri aktuallaşır), mətnin strukturu (mətni paralelizm, sintaqmatik yaxud paradiqmatik münasibətlər) dəyişir. Mətnin assosiativ genilənmə prosesi və mətnin leksik strukturunun «transformasiya»sı (çevrilməsi) oxşar mənanın qalması və formanın yeni keyfiyyət qazanması ilə nəticələnir. Bu, sintaksisdə sintaktik sinonim olaraq çıxış edir. Məsələn, tamamlıq budaq cümləsi ilə onun feili tərkiblərlə sinonimliyini buna misal göstərmək olar. Belə ki, həm baş, həm də budaq cümlənin xəbərinin ifadə olunduğu feil şəklindən asılı olmayaraq, əgər baş cümlənin xəbəri təsirli feillə ifadə olunmuşdursa, tamamlıq budaq cümləsi təsirlik hal şəkilçisi qəbul etmiş- *dığı...* morfoloji göstəricili feili sifət tərkibinin mənasına uyğunlaşır və onunla sinonim sıra əmələ gətirir: *Ancaq yəqin bilirəm ki, o gün bu sözləri bir neçə dəfə təkrar etdim= Ancaq o gün bu sözləri bir neçə dəfə təkrar etdiyimi yəqin bilirəm.*

**Məktəblərdə mətn üzərində assosiativ təhlil bacarığını formalaşdırmaq**, assosiativ təhlil istedadın, yaradıcı qabiliyyətin, yeni düşüncənin, axtarışların intensiv üzə çıxması üçün çox vacibdir. Bunların həyata keçməsi üçün yeni interpretasiya (izah, şərh) üsulları tapılmalıdır. Hər şeydən əvvəl, şagirdlərə sözün paradiqmatik potensialı öyrədilməli, hər bir nitq hissəsinin yaratdığı stimul-reaksiya, *mütləq əlaqə* başa salınmalıdır. Məs.: stimul-isim – stimul-əvəzlik: baba – mənim, şəhər – bizim, familiya – mənim və s.

Zərf-reaksiya isimlə kateqorial-semantik əlaqəyə girir: səs-yuxarıda, həyat – irəlidə və s.

Zərf digər nitq hissələri ilə də assosiativ cütlük əmələ gətirir: istidən – boğulmaq, heyrətdən – donmaq və s. Bu cür assosiasiya –dan, -dən şəkilçili sözlərin daxili semantikası ilə bağlıdır, onların səbəb zərfi kimi inkişafına zəmin yaradır. Bu baxımdan dilimizdə kauzativlik (səbəbiyyət) əlaqəsi geniş biçimdə ifadə olunma imkanlarına malikdir.

***Nəticə.*** Mətndə sözün assosiativ əlaqəsinin təhlil aspektləri göstərir ki, Hər bir nitq hissəsinin assosiativ sahəsi olur. Beləliklə, morfoloji formalar, sözlər şüurda, dil daşıyıcıları tərəfindən funksionallaşır, növbəti mərhələdə həmin formaları dissipativ qrammatikada psixolinqvistik aspektdə öyrənmək durur.

Müasir Azərbaycan dilində assosiativ cütlüklər xüsusi olaraq qrammatikləşir, müxtəlif stimul-reaksiyalar kommunikasiya prosessində fəal iştirak edir. Qrammatikləşmədə sintaktik primitivlər mühüm rol oynayır. Primitivləşmə söz yaradıcılığı tor və yuvalarını əhatə edir. Məs: baba – qoca; qoca –baba, ayı – ağ, ağ – ayı və s.

“Bilet” sözünün sintaktik primitivləri aşağıdakı kimidir: kinoya, teatra, konsertə, qatara, təyyarəyə, lotereya və s.

Müasir Azərbaycan dilinin assosiativ qrammatikasını yazmaqdan ötrü öncə assosiativ lüğətlər tərtib edilməlidir. *Assosiativ lüğətlər yeni linqvistik mənbədir və dil istedadının (bacarığının) təhlil alətidir.* Azərbaycan dilinin assosiativ lüğətini hazırlamaq qarşıda bir məqsəd kimi durur; Həmin lüğətlərdə hansı dil və nitq informasiyaları öz əksini tapmalıdır? Bu tip lüğət kimlərə lazımdır? Azərbaycan dilinin assosiativ normalarını müəyyənləşdirmək də qarşıda duran problemlərdəndir. Nəhayət, müasir Azərbaycan dilininin assosiativ tezaurus sözlüklərini hazırlamaq da tövsiyə olunur və s.

Assosiativ lüğətlər müasir Azərbaycan dilinin morfoloji quruluşunun – nitq hissələrini və sintaktik primitivləri əhatə edir.

Stimul üçün müxtəlif reaksiyalar konsentrasiya olunur. Sözün qrammatik xarakterinin rolu mütləq assosiativ əlaqəni formalaşdırır. Sözün praqmatik mənası assosiativ əlaqəyə təsir göstərir.

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. II cild. (1980) Azərb. EA müxbir üzvü, prof. Ə.Ə.Orucovun redaktəsi altında. Bakı, «Elm» nəşriyyatı.
2. Azərbaycan dili.(2019). Dərslik. Altun kitab.
3. Ахманова О.С. (2007). Словарь лингвистических терминов. М.: КомКнига.
4. Бабенко И.И. (1999). Ассоциативность как интегральное коммуникативное свойство слова\\Труды регион, науч.-практ-конф. Студ., асп. И молодых ученных «Сибирская школа молодого ученного» (21-23 декабря 1998 г.). Т.3. -Томск: ТГПУ, 1999
5. Болотнова Н.С. (1994). Лексическая структура художественного текста в ассойиативном аспекте. Томск, Изд-во ТГУ.
6.Verdiyeva Z., Ağayeva F., Adilov M. (1982) Dilçilik problemləri. I, Bakı, «Maarif»
7.Veysəlli F. (2006) Dilçilik ensiklopediyası.I, Bakı.
8. Гальперин И.Р. (1981). Текст как объект лингвистического исследования. М.: «Наука» : 138 с.
9. Карпенко С.М. (2000). Ассоциативные связи слова в узусе и поэтическом тексте. Автореф. дис. канд. филол.наук.
10. Караулов Ю.Н. (1993). Ассоциативная грамматика русского языка. М.: «Русский язык»
11. Караулов Ю.Н. (2015). Ассоциативный анализ: новый подход к интерпретации художественного текста. Журнал «Вопросы психолингвистики»
12. Крушевский Н.В. (1983). Очерк науки о языке._Избранные работы по языкознаниию. М.: «Наследие»
13. Мурзин Л.Н., (1994). Язык, текст и культура._Человек-Текст Культура. Екатеринбург: Изд-во Ур ГУ, с. 160-169. с. 161
14.Новикова А.М (1998). Ассоциативные поля в языке и структуре художественного текста. Автореф. дис. канд.филол.наук.
15. Норман Б.Ю.(1994). Грамматика говорящего. СПб.
16. Сидоров Е.В.(1987). Онтология дискурса. Изд-во «УРСС»
17. Словарь ассоциативных норм русского языка. (1977). Под ред. А.Ф.Леонтьеве. М.

**Ismail KAZIMOV**

## ASSOCIATIVE GRAMMAR OF THE MODERN AZERBAIJANI LANGUAGE

## SUMMARY

This article is the first to highlight the issues of creating associative grammar of the modern Azerbaijani language. It has been established that such a grammar and a dictionary are fundamentally different from traditional grammar and dictionaries. And nowadays, associative grammar, which arose as a result of the associative process, is becoming one of the independent fields of language science.

In Russian linguistics, associative grammar was first written by B.Y. Normanom and Y.N. Karaulov.

The article discusses the associative aspect of the word, points out the need for the creation of associative dictionaries in Azerbaijani lexicography.

The most important source for a deeper study of these issues is integrative-associative dictionaries, but they are not in Azerbaijani lexicography. That is, from the point of view of integrative communication, this is a new direction in Azerbaijani linguistics. Also, since the text is a form of communication, the study of this topic is relevant.

In addition, this grammar, creating an associative-verbal network, is distinguished by a new approach to the grammatical structure of the language, defines the prospects for new research and creates favorable conditions for solving ontological issues.

***Keywords****: association, linguistic ideas, a new type of grammar, associative grammar, associative field*

**Исмаил КЯЗИМОВ**

## АССОЦИАТИВНАЯ ГРАММАТИКА СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

### РЕЗЮМЕ

В статье впервые освещаются вопросы создания ассоциативной грамматики современного азербайджанского языка. Установлено, что такая грамматика и словарь принципиально отличаются от традиционной грамматики и словарей. И в наши дни ассоциативная грамматика, возникшая как результат ассоциативного процесса, становится одной из самостоятельных областей языковедческой науки.

В русском языкознании ассоциативная грамматика впервые была написана Б.Ю. Норманом и Ю.Н.Карауловым.

В статье рассматривается ассоциативный аспект слова, указывается на необходимость создания ассоциативных словарей в азербайджанской лексикографии.

Наиболее важным источником для более глубокого изучения этих вопросов являются интегративно-ассоциативные словари, а их в азербайджанской лексикографии нет. То есть с точки зрения интегративной связи это новое направление в азербайджанском языкознании. Также, поскольку текст является формой коммуникации, изучение данной темы актуально.

Кроме того, эта грамматика, создавая ассоциативно-вербальную сеть, отличается новым подходом к грамматической структуре языка, определяет перспективы новых исследований и создает благоприятные условия для решения онтологических вопросов.

***Ключевые слова:*** *ассоциация, лингвистические идеи, грамматика нового типа, ассоциативная грамматика, ассоциативное поле*